# XƏZƏR REGİONUNDA TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİNƏ MÜXTƏLİF YANAŞMALAR

**Ə.M.SÜLEYMANOV, K.C.MƏMMƏDOV**
***Azərbaycan Dövlət Dəniz Akademiyası, Bakı Dövlət Universiteti***
***süleymanov.az@mail.ru, karam.mamedov@mail.ru***

*Müasir dövrdə ictimai elmlərdə və eləcə də siyasi publisistikada təhlükəsizlik nəzəriyyəsi üçün ənənəvi hərbi və nüvə təhlükəsizliyi ilə yanaşı bu anlayışın başqa bir iqtisadi, ekoloji, dənizdə təhlükəsizlik və s. kimi söz birləşmələrinə də rast gəlmək mümkündür. Ona görə də Xəzər təkcə region ölkələrinin yox, hətta müasir dünyanın ən qüdrətli dövlətlərinin diqqət mərkəzindədir. Qloballaşan dünyanın bugünkü düzəni enerji daşıyıcılarına olan tələbatı dəfələrlə artırdığı üçün, onun mənbəyi fövqəladə əhəmiyyət kəsb edir.*

*SSRİ-nin dağılması ilə əlaqədar yeni Xəzəryanı dövlətlərin yaranması (Azərbaycan, Qazaxıstan və Türkmənistan) 1921 və 1940-cı il Sovet–İran müqavilələri ilə müəyyən edilmiş Xəzər dənizinin hüquqi rejimində hər hansı bir dəyişiklik yaratmadı. Bu dövlətlər beynəlxalq hüququn ümumi normaları, 21 dekabr 1991-ci il tarixli Alma-Ata bəyannaməsinə və müstəqil dövlətlər birliyinin sonrakı aktlarına əsasən keçmiş SSRİ-nin müqavilələrinə münasibətdə varəsəliyi həyata keçirir. Bu isə o deməkdir ki, Xəzər dənizi ilə əlaqədar atılan hər bir addım mövcud hüquqi rejimə və beynəlxalq hüququn ümumi normalarına əsaslanmalıdır.*

*Bununla belə tədqiqatçılar xüsusi qeyd edirlər ki, zəngin təbii ehtiyatların mövcudluğu Xəzərin hüquqi statusunun müəyyən olunmasında açar rolunu oynayır.*

Müasir dövrdə ictimai elmlərdə və eləcə də siyasi publisistikada təhlükəsizlik nəzəriyyəsi üçün ənənəvi hərbi və nüvə təhlükəsizliyi ilə yanaşı bu anlayışın başqa bir iqtisadi, ekoloji, dənizdə təhlükəsizlik və s. kimi söz birləşmələrinə də rast gəlmək mümkündür. Xüsusilə beynəlxalq münasibətlərin, dünya düzəninin müasir vəziyyətində təhlükəsizlik anlayışı ön sırada olan anlayışdır.

«Təhlükəsizlik» sözünün bir «vəziyyət» kimi gündəlik anlamı onu göstərir ki, bu gün müasir dünyada təhlükəsizlik həmişə predmetli olub, nəyə isə aid olmaqla xaricdən və yaxud daxildən real qorxunun, təhlükənin obyektiv mövcudluğunu göstərir. Subyektiv olaraq araşdırılan problemin əsasını isə məhz Xəzərdə təhlükəsizlik məsələsi təşkil edir.

Təhlükəsizlik konsepsiyasının əsasında təhlükə (qorxu) və yaxud narazılıq dayanır. Bu mənada Xəzər dənizinin bugünkü reallıqda təhlükəsizliyi xüsusi əhəmiyyət daşıyır. Heç kimə sirr deyil ki, Xəzər kifayət qədər karbohidrogen ehtiyatları və digər təbii resurslarla zəngin dənizdir. Ona görə də, Xəzər təkcə region ölkələrinin yox, hətta müasir dünyanın ən qüdrətli dövlətlərinin diqqət mərkəzindədir. Qloballaşan dünyanın bugünkü düzəni enerji daşıyıcılarına olan tələbatı dəfələrlə artırdığı üçün, onun mənbəyi fövqəladə əhəmiyyət kəsb edir. Bütün bunlar isə Xəzərin əhəmiyyətini daha çox artırır.

Məlum olduğu kimi, Xəzərin təhlükəsizliyi və hüququ rejimi SSRİ və İran

dövlətləri arasında bağlanmış 1940-cı il müqaviləsi ilə tənzim olunurdu. Bu müqavilənin əsasında isə 1921-ci il müqaviləsi dayanır. SSRİ və İran 1940-cı il müqaviləsindən sonra Xəzər məkanının istifadəsinin hüquqi aspektlərini izah edən, ona aid olan heç bir müqavilə imzalamamışdır, yeganə olaraq balıqçılıq və gəmiçilik sahəsində bəzi sənədlər qəbul edilmişdir. Bu onu göstərir ki, SSRİ və İran Xəzər dənizinə özlərinin istifadəsində olan ümumi dəniz kimi baxmış və gələcəkdə qarşıya çıxa biləcək məsələləri qarşılıqlı sazişlər əsasında həll etməyi mümkün saymışlar. SSRİ-nin dağılmasından sonra yeni dövlətlərin Azərbaycan, Qazaxıstan və Türkmənistan yaranması ilə əlaqədar olaraq situasiya dəyişdi. Yeni Xəzəryanı dövlətlər Xəzərin hüquqi rejiminin 1921 və 1940-cı il müqavilələri əsasında müəyyən edilməsini etiraf etməsələr də, onların fikrincə Xəzər məkanının və onun təbii resurslarının (ehtiyatlarının), başlıca olaraq karbohidrogen ehtiyatlarının, eləcə də dənizin çirklənməsinin qarşısının alınması məsələlərini bu müqavilələr tənzim etmir. Bundan əlavə Rusiya, Azərbaycan, Qazaxıstan və Türkmənistan güman edirlər ki, Xəzər dənizinin təhlükəsizliyi bilavasitə onun hüquqi rejiminin müəyyən edilməsi ilə bağlıdır. Xəzərin hüquqi rejiminin müəyyən edilməsi isə başlıca olaraq Xəzərin göl və yaxud dəniz kimi tanınmasından asılıdır. Əgər Xəzər dənizi göl kimi qəbul edilirsə ona sahilyanı göl kimi yanaşılmalı və onu müvafiq dövlətlər arasında sektorlara bölmək lazımdır. Yox, əgər Xəzər dəniz kimi qəbul olunsa ona beynəlxalq dəniz hüququnun ilk növbədə BMT-nin dəniz hüququ Konvensiyası tətbiq olunmalıdır. Qeyd etmək lazımdır ki, tədqiqatçıların böyük əksəriyyəti hesab edirlər ki, Xəzərin təhlükəsiz hüquqi rejimi istər 1921 və istərsə də 1940-cı il SSRİ və İran dövlətləri arasında bağlanmış müqavilələr ilə kifayət qədər tənzim edilməmişdir və hazırkı dövrdə Xəzərin hüquqi rejimi yuxarıda qeyd olunduğu kimi onun dəniz və ya göl kimi tanınmasından asılıdır. Bizim fikrimizcə Xəzəryanı dövlətlər bu məsələdə BMT Konvensiyasının normalarını tətbiq edə bilər. Bu dövlətlər Xəzərin spesifik fiziki coğrafi xüsusiyyətlərilə şərtlənən xüsusi rejim də müəyyən edə bilərlər. Bu mənada Rusiya, Qazaxıstan və Azərbaycanın tutduğu mövqe fikrimizcə məqsədəmüvafiqdir. Belə ki, adı çəkilən dövlətlər Xəzər dənizinin hüquqi rejiminə dair ümumi müqavilənin imzalanmasını gözləmədən dənizin dibində sərhədlərin müəyyən edilməsi üçün iki tərəfli müqavilələr bağlanması təklifini irəli sürmüşlər. Bu zaman Rusiya belə bir prinsip irəli sürdü ki, dənizin dibini sektorlara bölək, lakin səthi ümumi olsun. Məlum olduğu kimi 06 iyul 1998-ci ildə Xəzər dibinin şimal sərhədində dəniz dibinin bölünməsinə dair Saziş imzaladılar. Bu Sazişin preambulasında qeyd olunurdu ki, Saziş bağlanması Xəzər dənizinin hüquqi rejiminin hazırkı tələbata cavab verə bilmədiyi və həmçinin Xəzəryanı dövlətlər arasındakı münasibətləri tam həcmdə nizama sala bilməməsi ilə şərtlənir.

23 sentyabr 2002-ci ildə Rusiya və Azərbaycan Xəzər dənizinin dibində həmhüdud sahələri dürüst müəyyən etməklə hədd qoyulması barədə Saziş imzaladılar. Bundan əvvəlki Saziş kimi (06 iyul 1998-ci il), bu Saziş də təbii sərvətlər üzərində suveren hüquqların və təsərrüfat fəaliyyətinin həyata keçirilməsi məqsədini güdürdü. Qeyd etmək yerinə düşər ki, Türkmənistan hələ 1994-cü ildə dövlət sərhədləri barəsində qəbul etdiyi qərarda ərazi sularının 12 dəniz mili enində olmasına göstərmişdir. Azərbaycan isə öz növbəsində respublika Konstitusiyasının 11-ci maddəsinə əsasən öz ərazisinə Xəzər dənizinin ona məxsus olan sektorunu və bu sektor üzərindəki hava boşluğunu (məkanını) daxil etmişdir. Yuxarıda qeyd olunan iki Sazişlə dəniz dibinin bölünməsi həmin sazişlərin 1921 və 1940-cı il müqavilələri ilə müəyyən edilmiş

hüquqi rejim və beynəlxalq hüququn ümumi normaları ilə nə dərəcədə uyğunlaşması məsələsini gündəmə gətirmişdir. Bundan əvvəl qeyd edildiyi kimi 1921 və 1940-cı il müqavilələrinə əsasən Xəzər dənizi Sovet-İran birgə dənizi hesab olunur, SSRİ–nin dağılması ilə əlaqədar yeni Xəzəryanı dövlətlərin yaranması (Azərbaycan, Qazaxıstan və Türkmənistan) 1921 və 1940-cı il Sovet-İran müqavilələri ilə müəyyən edilmiş Xəzər dənizinin hüquqi rejimində hər hansı bir dəyişiklik yaratmadı. Bu dövlətlər beynəlxalq hüququn ümumi normaları, 21 dekabr 1991-ci il tarixli Alma-Ata bəyannaməsinə və müstəqil dövlətlər birliyinin sonrakı aktlarına əsasən keçmiş SSRİ-nin müqavilələrinə münasibətdə vərəsəliyi həyata keçirir. Bu isə o deməkdir ki, Xəzər dənizi ilə əlaqədar atılan hər bir addım mövcud hüquqi rejimə və beynəlxalq hüququn ümumi normalarına əsaslanmalıdır.

Keçmiş SSRİ-nin varisi kimi Rusiya Federasiyasının Xəzər regionunda özəl marağı vardır. Burada Rusiyaya qısqanclıq gətirən fakt «hazırda Azərbaycan, Qazaxıstan və Türkmənistanın neft-qaz sənayesinin getdikcə güclənməsi və sürətlə inkişaf etməsidir. Bu ölkələrdə çıxarılan neft və qazın maya dəyəri Rusiyanın şimalında çıxarılan neft və qazın maya dəyərinə nisbətdə xeyli aşağıdır və onlar dünya neft bazarına daha yaxında yerləşir. Bu ölkələr yaxın vaxtlarda dünya neft və qaz bazarında Rusiyanın başlıca rəqibi ola bilərlər. Rusiya bunu anladığı üçün vəziyyətdən çıxış yolu axtarır (5, 128).

Əlbəttə belə vəziyyətdə Rusiyanın şimalındakı çətin keçilən ərazilərdə yerləşən yataqlara investisiya yönəltməkdənsə Azərbaycan, Qazaxıstan və Türkmənistan neft-qaz sənayesinə Rusiya investisiyası ən ağıllı və sərfəli ola bilərdi. Bu halda Rusiya neft şirkətlərinin payı bu ölkələrdə 30 faizədək olmalıdır. Bununla da Rusiya qarşısında duran iki mühüm məsələni – həm dünya neft bazarında Xəzər regionunun bu ölkələri ilə rəqabətdən tərəfdaşlığa keçməsini və həm də geosiyasi problemini həll etmək imkanını əldə etmiş olardı (5, 128).

Fikrimizcə, müəllifin mövqeyi diqqət çəkici xarakter daşıyır. Xəzər dənizinin sektorlara bölünməsi barədə müstəqil dövlətlər arasında bağlanan yuxarıda qeyd olunan Sazişlərin hüquqi qüvvəsi beynəlxalq hüquqda birmənalı qarşılanmamışdır. Xəzər dənizinin ümumi istifadə dənizi yəni Xəzəryanı dövlətlərin suverenliyi altında olduğu üçün həmin sazişlər (iki tərəfli sazişlər nəzərdə tutulur) hüquqa ziddir, yəni onların hüquqi qüvvəsi yoxdur. Belə ki, Xəzər dənizində xüsusi hüquqlar Xəzəryanı dövlətlərin ümumi razılığı əsasında həyata keçirilməlidir (6, 51).

Müəllif hesab edir ki, Xəzəryanı dövlətlər özlərinin qanunverici aktlarını ancaq öz vətəndaşlarına, dövlət orqanlarına, təşkilatlarına münasibətdə qəbul edə bilərlər.

Bir daha qeyd edək ki, Xəzər dənizinin hüquqi rejimi hazırki dövrdə1921 və 1940-cı il müqavilələri ilə tənzim olunur. Bu öz təsdiqini Rusiya və Azərbaycan arasında Xəzər dənizində əməkdaşlıq prinsiplərinə dair bağlanmış 09 yanvar 2001-ci il tarixli birgə bəyanatda və eləcə də İran dövlətinin BMT Baş Katibinə ünvanladığı 12 noyabr 1997-ci il tarixli A/52/588 saylı məktubunda tapmışdır. Digər tərəfdən Xəzəryanı dövlətlər bütün hallarda unutmamalıdır ki, beynəlxalq hüquqda estoppel prinsipi vardır. Bu prinsipin təməlində vicdanlılıq və qarşılıqlıq dayanır, beləki, dövlətlər öz davranışında ardıcıl olmalıdır. Fikrimizcə Rusiyanın Qazaxıstan və Azərbaycanla dənizin dibinin bölünməsinə dair iki tərəfli Sazişlərə 1921 və 1940-cı il SSRİ – İran müqavilələrinin və eləcə də estoppel prinsipinin pozulması kimi baxmaq olar. Deməli, Xəzəryanı dövlətlər müasir dövrdə Xəzər dənizilə əlaqədar bu və ya digər Saziş bağlayarkən, həmin Sazişin 1921 və 1940-cı il müqavilələrinə nə qədər

uyğun olmasını nəzərə almalıdırlar. Bu vəziyyət Xəzərin hüquqi rejiminə dair Konvensiya qəbul edilənə qədər davam edəcəkdir, hansıki, yeni qəbul ediləcək Konvensiya 1921 və 1940-cı il müqavilələrini əvəz edəcəkdir. Müasir dövrdə Xəzəryanı dövlətlər Xəzər dənizinin bioresurslarının qorunması, ekoloji təmizliyi, təbii əhatəsi barədə müqavilələr bağlaya bilərlər.

Xəzəryanı regionun problemləri və sosial–iqtisadi inkişafının perspektivləri bilavasitə Xəzər dənizilə əlaqədardır. Bu isə öz növbəsində sair faktorlarla bərabər Xəzərin ekoloji təhlükəsizliyinin təmin edilməsini nəzərdə tutur. Avropa və Asiyanın qovşağında yerləşən Xəzər dənizini birmənalı şəkildə göl və yaxud dəniz adlandırmaq, mümkün deyil. Bu isə Xəzərin hüquqi rejiminin müəyyən edilməsində xüsusi rol oynayır. Xəzər hövzəsinin dünya ölkələrilə əlaqəsi olmadığı və hövzənin qapalı olması onu göl adlandırmağa imkan verir. Bununla belə onun göl olaraq sahəsinin dünyada ən böyük olması (398100 km.), cənubda dərinliyinin 1025 m. olması onu göstərir ki, Xəzəri dəniz adlandırmaq olar.

Ekoloji təhlükəsizlik baxımından Xəzər problemləri bu gün həyəcan doğurur. Xəzəryanı dövlətlərin Xəzərdən istifadəsinin həddini müəyyənləşdirən xüsusi normativ aktların olmaması bu gün Xəzərin çirklənməsinin qarşısını almağı mümkünsüz edir.

Karbohidrogen ehtiyatlarının Xəzəryanı regionda, həm quruda, həm də şelf zonada mənimsənilməsi şübhəsiz ki müəyyən diqqət tələb edir. Dənizdən karbohidrogen çıxarılması daha çox Xəzərin Azərbaycan sektoruna düşür. Belə faktı nəzərdən qaçırmaq olmaz ki, dənizdə neft yataqlarının kəşf edilməsi və istismarı dənizin normadan artıq çirklənməsinə səbəb olur. Bu isə suda üzən quşların məhvilə nəticələnir. Beləki 1998-ci ildə Abşeron rayonunda Qel adasında minlərlə quş məhv olmuşdur. Dənizin neftlə çirklənməsi balıqçılıq təsərrüfatına da böyük ziyan vurur. Nərə balığının əsas bazası olan şimali Xəzərdə 1980-cı illərin axırına qədər neftlə çirklənmə nisbətən aşağı səviyyədə idi. Lakin Astraxan qaz kondensator kompleksinin işə düşməsilə əlaqədar olaraq vəziyyət dəyişdi. Tengiz yataqlarının kəşfi və istismarı, daha sonra Kataqan yataqlarının istismarı bu vəziyyəti daha da dərinləşdirdi. Beləki, ekoloji baxımdan dənizin çirklənməsi prosesi sürətləndi. Dənizin çirklənməsi öz növbəsində balıq ehtiyatlarının məhvinə səbəb olur, son vaxtlarda icazəsiz balıq ovunun (brakonyorluq) artması Xəzər hövzəsində nərə balığının kəskin azalmasına səbəb olmuşdur. Buna görə də sahilyanı dövlətlərə nərə balığının ovlanması üçün xüsusi kvota müəyyən edilmişdir.

Qeyd edilənlər onu göstərir ki, Xəzərin statusu problemi özlüyündə onun bütün problemlərinin açarıdır. Burada Azərbaycan dövlətinin mövqeyini xüsusi qeyd etməyi zəruri hesab edirik. Azərbaycan Xəzərin sahilyanı «göl» kimi tanınması ilə çıxış etməklə, onun beş sektora bölünməsini təklif edir; bu sektorlar isə konkret dövlətin ərazi suları hesab edilməklə dövlətin həmin ərazidə müstəsna səlahiyyət hüququ təmin olunacaq. Belə bölgü nəticəsində hər bir sahilyanı dövlət öz sektorunda bioresursların üzərində müstəsna suverenitetə malik olmaqla, Xəzərin dibinin, dəniz təkinin işlənməsində və s. sahilyanı dövlətlərin qanunvericiliyinə uyğun olaraq həyata keçirməni nəzərdə tutur.

Bundan əlavə Azərbaycan dövləti «kompromiss» kimi başqa bir «Açıq dəniz» variantını təklif edir. Bu variant 1982-ci ildə qəbul edilmiş və 16 noyabr 1994-cü ildə qüvvəyə minmiş BMT-nin dəniz hüququ üzrə Konvensiyasına əsaslanır. Bu varianta görə hər bir sahilyanı dövlətin 12 mil dəniz ərazisinə hüququ vardır. Göstərilən bu də-

niz ərazisinin səması, dibi və təkinə sahilyanı dövlətin tam suverenliyi tətbiq olunur.

Qazaxıstan dövlətinin fikrincə Xəzərə «Açıq dəniz» və yaxud «Sahil gölü» variantı kimi baxmaq olmaz. Qazaxıstan dənizin bölünməsinin yeni prinsipini: orta xətt üzrə iqtisadi zonalara bölünməsini irəli sürür.

Rusiya diplomatiyası hesab edir ki, Xəzərdən neftin çıxarılması barədə qonşuların razılığı olmadan hər hansı bir Saziş legitim hesab etmir. Lakin buna baxmayaraq Xəzərin zonalara bölünməsi prosesi faktiki olaraq gedir.

1. İranın mövqeyi isə kifayət qədər mübahisə doğurandır. İran İslam Respublikası Xəzərin sektorlara bölünməsi məsələsində 1921 və 1940-cı il müqavilələrinə istinad edir.Bu muqavilələr açıq-aşkar bunu nəzərdə tutur ki, üçüncü dövlətlərin Xəzərdə heç bir hüququ yoxdur; lakin həmin müqavilələr dəniz dibinin ümumi mülkiyyətdə qalıb-qalmamasını nəzərdə tutmurdu. Bu müqavilələrə görə Xəzərin «ümumi mülküyyətçiləri» İran və SSRİ-dir. Belə yanaşmaya əsasən Xəzərin bütün ehtiyyatlarının 50 faizi İrana verilir və qalan 50 faizin neçə bölünməsi ilə bağlı heç bir göstəriş mövçud deyil (3, 275).

Bir daha qeyd etməyi zəruri Hesab edirik ki, Sovet İttifaqı dağıldığdan sonra Xəzərin statusu mübahisə obyekti olmuşdur. SSRİ və İran arasında bağlanmış müqavilə iki dövlətin dəniz sərhədini deyil, torpaq sərhədin müəyyən etmişdir. Hazırda İranın Xəzərdəki sektoru dənizin 12 faizini təşkil edir. SSRİ-nin dağılması İranın dənizdəki payına heç bir təsir göstərmədiyi üçün İran əlavə pay bölgüsünə iddia irəli sürə bilməz. Buna baxmayaraq İran hazırda özünün Xəzərdəki sektorunu dəniz səthində və dibində 20 faizə qədər artırılmasını tələb edir ki, bu da əsas etibarilə neftlə zəngin olan Azərbaycan sektorudur. Sovet ittifaqının dörd varisi – Azərbaycan, Qazaxıstan, Rusiya və Türkmənistanın həmçinin İranın mübahisəli məsələlər üzrə razılığa gəlmək cəhdləri, çox saylı müxtəlif səviyyəli görüşlər Xəzər problemini tam aradan qaldırmamış bu problem də öz növbəsində bir sıra iqtisadi-siyasi və təhlükəsizlik baxımından məsələnin həllini real əks etdirməməkdə davam edir.

11 mart 2010-cu ildə respublikamızın paytaxtı Bakı şəhərində Xəzərdə təhlükəsizliyin təmin edilməsi sahəsində qarşılıqlı fəaliyyət haqqında sazişin layihəsi müzakirə edilmişdir. İki gün davam edən müzakirələr Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində və həmin dövlətlərin aidiyyəti qurumlarının səlahiyyətli nümayəndələrinin iştirakı ilə aparılmışdır.

Azərbaycan tərəfi öz mövqeyində qalaraq bəyan etmişdir ki, ölkəmiz həmişə xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşır. Xəzər dənizinin mehriban qonşuluq, qarşılıqlı faydalı əməkdaşlıq,dostluq, sülh və təhlükəsizlik dənizi olmağı bir daha vurğulanmışdır. Azərbaycan dövləti Xəzər regionunda terrorçuluğa və mütəşəkkil cinayətkarlığa, narkotiklərin və silahların qeyri-qanuni dövriyyəsinə qarşı mübarizədə beynəlxalq hüququn prinsipləri və normaları çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına xüsusi önəm verir. Ölkəmizin mövqeyi: həmişə olduğu kimi Xəzər dənizinin bütün region üçün mühüm əhəmiyyət kəsb etdiyini, bu baxımdan da Azərbaycanla yanaşı xəzəryanı dövlətlər də etibarlı və təhlükəsiz kommunikasiyaların yaradılması, investisiya mühitinin yaxşılaşdırılması və enerji ehtiyatlarının mənimsənilməsi, o cümlədən regionda sülhün və sabitliyin yaradılması kimi ümumi maraqlara sahibdirlər.

Hesab edirik ki, Saziş layihəsi sərhəd, gömrük xidmətləri, daxili işlər, fövqəladə hallar, nəqliyyat orqanları və dəniz administrasiyaları xətti ilə qarşılıqlı əlaqə məsələlərini əhatə etməklə yanaşı təhlükəsizliyin həllinə real zəmin yaratmalıdır.

Bakı görüşünün nəticəsi olaraq layihə əsasında yekun mətninin tərtib olunacağı və bu sənədin gələcəkdə reallaşdırılacağı təqdirdə təhlükəsizlik sahəsində xəzəryanı dövlətlər arasında əməkdaşlığın yaradılması üçün hüquqi əsas kimi birdəfəlik bu münasibətləri nizama salan hüquq norması müəyyən edilməli, varis dövlətlər də regionda həm siyasi, həm iqtisadi, əsas etibarı ilə təhlükəsizlik məsələlərində özlərinə aid problemlərdə bu normalardan yararlanmalıdırlar.

SSRİ-nin süqutu bir daha göstərdi ki, Xəzər regionunda olan problemli məsələlər təhlükəsizlik baxımından müxtəlif tarixi dövrlərdə qəbul edilmiş normalar əsasında öz sabitliyini hələ də tapmamaqdadır. Belə olan halda yeni konsepsiyalar işlənməli və ən əsası Xəzərin region dövlətləri ilə münasibətləri sivil qaydada həll edilməli. Başlıcası isə birdəfəlik Xəzər məsələlərini nizama salan Beynəlxalq normalar sistemi işlənilib hazırlanmalıdır. Subyektiv olaraq problemin həlli yolu Xəzər sularında siyasi və iqtisadi sabitliyi təhlükəsizlik baxımından qoruyub saxlamaq üçün silahlı qüvvələrin sayının balanslaşdırılması məqsədə müvafiq hesab etmək olar ki, bu məsələ Xəzərdə fəaliyyət göstərən xarici investorların təhlükəsizlik qaydaları ilə yanaşı iri sərmayələrin də qoyulmasını şərtləndirər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 100 s.
2. Əsgərov Ə.İ. Beynəlxalq hüquq: Dərs vəsaiti. Bakı: Azərnəşr, 1979, 386 s.
3. Hüseynov L.H. Beynəlxalq hüquq: Dərslik. Bakı: Hüquq ədəbiyyatı, 2000, 408 s.
4. Xalq qəz., Bakı, 2010, 12 mart, №56, s.5
5. Quliyev A.M., Məmmədov F.N., Nəbiyev K.M., Nəbiyev X.M. Enerjidaşıyıcılar: imkanlar, perspektivlər. Bakı: Nafta-Press, 2006, 297 s.
6. Барсегов Ю.Г. Международное морское право. М.: Волтерс Клувер, 2007, 367 с.
7. Конвенция об открытом море. М.: Госиздать, 1958, 34 с.
8. Мамедов Р.Ф. Международно-правовой статус Каспийского моря, как пограничного озера. Баку: Азернешр, 2006, 456 с.
9. Международное морское право. М.: Рконсульт, 2003, 496 с.
10. Международное морское право. Справочник / под ред.Г.С.Горшкова. М.: Юридическая литература, 1985, 301 с.
11. Международное право в документах. М.: Юридическая литература, 1982, 768 с.
12. Международное право: Учебное пособие. М.: Норма, 2001, 467 с.
13. Мировой океан и междунар. право. Отв. ред. А.П.Мовган, А.Янков М.: Наука, 1986, 398 с.
14. Молодцов С.В. Международное морское право. М.: Юридическая литература, 1987, 398 с.
15. Яковлев И.И. Международный орган по морскому дну. М.: Юридическая литература,1986, 198 с.


## РАЗЛИЧНЫЕ ПОДХОДЫ К ПРОБЛЕМАМ БЕЗОПАСНОСТИ В КАСПИЙСКОМ РЕГИОНЕ


**А.М.СУЛЕЙМАНОВ, К.Дж.МАМЕДОВ**


## РЕЗЮМЕ


Проблема статуса Каспия является ключевой при решении всех каспийских проблем, в том числе, вопросов безопасности, и суть ее сводится к следующему: до декабря 1991 года правовой режим Каспийского моря определялся договорами между Советской Россией и Персией в 1921 году и между СССР с Ираном в 1940 году. Новые независимые государства не являются участниками тех договоров и не желают принимать

условий, не отвечающих их интересам. Они аппелируют по поводу того, как внутриконтинентальный водоем Каспия, с точки зрения международного права и практики, является объектом совместного использования всех прибрежных государств.

Взгляды на урегулирование у сторон весьма различны. Россия, Иран и Туркмения предлагают в отношении Каспийского моря применить вариант «Закрытый водоем». Азербайджан, в свою очередь, выступает за признание Каспия пограничным озером, и призывает разделить его на 5 секторов, каждый из которых будет считаться территориальными водами конкретного государства, которое будет владеть данным пространством на основе исключительного права.

По мнению Казахстана, Каспий не должен рассматриваться по варианту «пограничное озеро» или «открытое море». Казахской стороной предлагается новый принцип раздела моря на экономические зоны по срединной линии.

Таким образом, государство выступает от своих интересов, которые не приемлемы для других прикаспийских государств. Поэтому на сегодняшний день «статус Каспийского моря» остается так и нерешенным.

Основная причина проблемы правового режима (статуса) Каспийского моря связана с теми природными ресурсами, которыми богато данное море, прежде всего с нефтью и газом. Это, в свою очередь, обусловлено затягиванием вопроса об определении правового режима моря. Как видно, вопрос безопасности Каспия напрямую связан с его правовым статусом.

## VARIOUS APPROACHES TO THE PROBLEMS OF SAFETY IN THE CASPIAN REGION

**A.M.SULEYMANOV, K.J.MAMMADOV**

**SUMMARY**

The problem of the status of the Caspian Sea is a key factor at the decision of all the Caspian problems including safety issues and its essence involves the following:

Till December, 1991 the legal regime of the Caspian sea was defined by the contracts between the Soviet Russia and Persia in 1921 and USSR and Iran in 1940.The new independent states are not participants of these contracts and do not wish to accept conditions not satisfying their interests. They appeal to that the midland reservoir of the Caspian sea, from the point of view of international law and practice, is the object of co-usage of all the coastal states.

The approaches of the parties to the settlement are rather various. Russia, Iran and Turkmenia suggest to apply the version «The closed reservoir» concerning the Caspian sea. Azerbaijan, in turn, supports the recognition of the Caspian sea as a boundary lake and urges to divide it into 5 sectors, each of which will be considered as maritime belt of the concrete state which will own the given space on the basis of the exclusive right.

According to Kazakhstan the Caspian sea should not be recognized under the version of a boundary lake or “a high sea”. The Kazakh party proposes a new principle for the section of the sea as economic zones by the median line. Thus, the state speaks on behalf of the interests inassessible by the other Caspian states. Therefore, for today, «the status of the Caspian sea» remains unsolved.

The principal cause of the problem of the legal regime (status) of the Caspian sea is connected with the natural resources, first of all oil and gas, with which the sea is rich in. This, in turn, is conditioned by the intensification of the question on the defintion of the legal regime of the sea. Apparently, the safety issue of the Caspian sea is directly connected with its legal status.